www.amu.edu.az

# TƏBİB

Təsisçi: Azərbaycan Tibb Universiteti — Qəzet 1933-cü ildən çıxır — №-04 (1787) 29 fevral 2024-cü il




## Prezident İlham Əliyev Xocalıda Soyqırımı Memorialının təməlini qoyub

"O qanlı tarixə qayıdanda, bizi qəzəb boğur, 30 il yox, 300 il keçsə də, bu qəzəb bizi buraxmayacaq"

səh. 2

## Əczaçılıq toksikologiyası və kimya kafedrasının elmi-tədqiqat nailiyyətləri

səh. 7

## Tanınmış mütəxəssis tələbə-rezidentlərə məruzə oxuyub

səh. 5

## Yeyinti məhsulları istehsalında qida əlavələrinin əhəmiyyəti və onlarla bağlı tələblər

səh. 7



## ATU-da Xocalı soyqırımının ildönümü ilə əlaqədar tədbir keçirilib

Professor Sabir Əliyev: Şanlı Zəfər nəticəsində nəinki ərazi bütövlüyümüzü bərpa etdik, həm də qisasımızı aldıq

səh. 3

## Azərbaycanda ortodontik xidmətin formalaşmasına böyük töhfə

*ATU-nun yeni kafedrası günün tələblərinə cavab verəcək mütəxəssislər hazırlayacaq*

səh. 5

## Uşaqlarda raxit – nədən bilək və necə qarşısını alaq?

*Professor Nailə Sultanova: Bu xəstəliyin erkən diaqnostikası və profilaktikası gələcək nəslin sağlamlığı baxımından mühüm məsələdir*

səh. 4




## Tələbələrimizin elmi fəaliyyəti Niderlandda yüksək qiymətləndirilib

Onların konqresdə iştirakı üçün lazım olan bütün xərclər Azərbaycan Tibb Universiteti tərəfindən qarşılanıb

səh. 4

# Prezident İlham Əliyev Xocalıda Soyqırımı Memorialının təməlini qoyub

## "O qanlı tarixə qayıdanda, bizi qəzəb boğur, 30 il yox, 300 il keçsə də, bu qəzəb bizi buraxmayacaq"

**Fevralın 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Xocalı şəhərində Xocalı Soyqırımı Memorialının təməlini qoyub, rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüb.**



AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı əvvəlcə mərasim iştirakçıları ilə görüşdü.

Görüşdə çıxış edən Prezident İlham Əliyev dedi:

- İlk dəfədir ki, Xocalı soyqırımı gününü biz Xocalıda günahsız Xocalı qurbanlarının xatirəsini anaraq qeyd edirik. Otuz iki ildən sonra biz doğma torpağımıza qayıtmışıq. Xocalı qurbanlarının xatirəsini əbədiləşdirmək üçün bu gün burada - 26 fevral günündə memorial kompleksin təməli qoyulacaq. Onu bildirməliyəm ki, bu layihə çoxdan hazır idi, yer də seçilmişdi, Bakı şəhərində Xocalı soyqırımı abidəsinin yanında yer seçilmişdir. Ancaq memorial kompleksin tikintisi ilə bağlı hər il mən müəyyən tərəddüdlər keçirərək o hadisəni, o layihəni təxirə salırdım. Ona görə ki, sizin kimi mən də inanırdım və bilirdim, biz buraya qayıdacağıq, Xocalıya qayıdacağıq və burada günahsız qurbanların xatirəsini əbədiləşdirmək üçün memorial kompleks yaradılacaq. Otuz iki ildən sonra siz qayıtmısınız. Otuz iki ildən sonra - o qanlı faciədən sonra biz Azərbaycanın hər bir guşəsində, Qarabağın hər bir yerində sahib kimi, bu Vətənin övladları kimi yaşayırıq, qururuq, bərpa edirik. Azad edilmiş bütün torpaqlarda geniş quruculuq işləri gedir.

Xocalı soyqırımı isə heç vaxt xalqımızın yaddaşından silinməyəcək. Heç vaxt Azərbaycan xalqı bu qanlı cinayəti unutmayacaq. Otuz iki il bundan əvvəl Ermənistan dövləti bu qanlı faciəni törədərək günahsız insanları qətlə yetirmişdir. 613 insan vəhşicəsinə qətlə yetirilmişdir, 150 insan itkin düşmüşdür, - təbii ki, onların da taleyi bəllidir, - 1000-dən çox insan girov götürülmüşdür, 60-dan çox uşaq, 100-dən çox qadın, yaşlı 70 insan erməni vəhşiləri, faşistləri tərəfindən vəhşicəsinə bir gecə içində qətlə yetirilmişdir.

Əfsuslar olsun ki, "Xocalıya ədalət!" çağırışımız cavabsız qaldı. Düzdür, 18 ölkə bizim səylərimizin nəticəsi olaraq bu qanlı faciəni soyqırımı kimi tanımışdır. Ancaq bu ölkələrin arasında böyük dövlətlərin adları yoxdur. Beynəlxalq təşkilatlar, onların bir çoxu bu faciəyə biganə qalmışdır.

Azərbaycan dövləti, dövlət qurumları, eyni zamanda, xaricdə yaşayan azərbaycanlılar, bizim ictimai təşkilatlarımız və onların arasında Heydər Əliyev Fondu Xocalı soyqırımını dünyaya tanıtdırmaq üçün çox böyük səylər göstərmişdir. Heydər Əliyev Fondunun xətti ilə geniş vüsət almış "Xocalıya ədalət!" kampaniyası dünyanın müxtəlif yerlərində özünü göstərmişdir, bir çox tədbirlər, təqdimatlar həyata keçirilmişdir, kitablar, məqalələr dərc edilmişdir, sərgilər təşkil olunmuşdur. Yəni, biz bu həqiqəti dünya ictimaiyyətinə çatdırmaq üçün bir çox səylər göstərmişdik və haqlı olaraq dünyadan ədalət tələb edirdik. Çünki Xocalı soyqırımı dünyanın gözü qarşısında baş vermiş qanlı cinayətdir. Xocalı soyqırımını inkar etmək ədalətsizlik və vicdansızlıqdır. Halbuki Ermənistan dövləti, o vaxt və bu gün onun arxasında duran eyni qüvvələr, eyni ölkələr əlindən gələni edirdilər ki, bu hadisə ört-basdır edilsin, Ermənistan məsuliyyətə cəlb olunmasın, Ermənistana qarşı hər hansı bir sanksiya tətbiq edilməsin və onlar cəzasız qalsın.

Biz onilliklər ərzində çalışırdıq, xüsusilə son illər ərzində çalışırdıq ki, bu qanlı cinayəti törədənlər ədalət qarşısında cavab versinlər. Ancaq görürdük ki, bu ədaləti ancaq biz özümüz bərpa etməliyik və bunu etdik. İkinci Qarabağ müharibəsi ədalətin təntənəsi idi. İkinci Qarabağ müharibəsi nəticəsində o vaxt işğal altında olan torpaqların böyük hissəsi azad edilmişdir, işğal altında qalan ərazilər beş ay bundan əvvəl azad edilmişdir.



Mən bilirəm ki, siz xocalılılar o vaxt bütün Azərbaycan xalqı kimi sevinmisiniz. Onu da bilirəm, sizin ürəyinizdə müəyyən fikirlər var idi ki, bəs Xocalı nə olacaq, bəs Xankəndi nə olacaq? Mən bunu bilirdim, ancaq sizə deyə bilmirdim ki, nə olacaq. Halbuki siz də bilirdiniz, mən də bilirəm ki, hər şey ədalətli olacaq. Biz Xocalısız ərazi bütövlüyümüzün, suverenliyimizin tam bərpa olunduğunu hesab edə bilməzdik. Xocalının Azərbaycan xalqının tarixində və şüurunda o qədər böyük yeri var ki, bu facie qəlbimizdə o qədər böyük yaralar salıb ki, Xocalı azad olunmadan biz sakitləşə bilməzdik. Beş ay əvvəl antiterror əməliyyatı nəticəsində Xocalı daxil olmaq şərtilə, bütün o vaxt digər ərazilər - hansılar ki, işğal altında idi və separatçılar orada at oynadırdılar, - azad edildi. 2023-cü il oktyabrın 15-də Xocalıda Azərbaycan Bayrağı qaldırıldı. Biz Xocalıda böyük abadlıq işlərinə də start vermişik.

"Xocalıya ədalət!" tələbimiz tam haqlı idi. Bu ədaləti döyüş meydanında təmin etməyimiz beynəlxalq hüquqa və tarixi ədalətə tam uyğundur. Biz tarixi ədaləti bərpa etmişik. Biz günahsız Xocalı qurbanlarının qisasını döyüş meydanında aldıq, qoymadıq ki, onların qanı yerdə qalsın. Düzdür, buna 30 il vaxt lazım oldu. Ancaq bu 30 il ərzində görülmüş işlər, apardığımız məqsədyönlü siyasət bu günü burada yaşamaq üçün bizə imkan yaradırdı.

O vaxt - işğal dövründə mənim köçkünlərlə, - bu gün keçmiş köçkünlər adlandırılır, köçkün anlayışı artıq tamamilə silinib bütün bizim vətəndaşlarımızdan, - çoxsaylı görüşlər əsnasında hər dəfə onlara deyirdim ki, gün gələcək və biz bütün torpaqlarda Azərbaycan Bayrağını qaldıracağıq, ərazi bütövlüyümüzü bərpa edəcəyik. Yüzdən çox köçkün qəsəbəsi salınmışdır və köçkün qəsəbələrinin hamısının açılışlarında mən iştirak etmişəm. Birinci köçkün qəsəbəsi o vaxt Ulu Öndər Heydər Əliyevin iştirakı ilə məhz xocalılılar üçün Ağcakənd qəsəbəsində salınmışdır və o vaxt bizim o qədər də böyük maliyyə imkanlarımız yox idi. Ancaq olan-qalan vəsait də bax o məqsədlər üçün istifadə olundu və bu, bir yol göstəricisi idi. Yəni, Ulu Öndər hamımıza göstərmişdi ki, biz ağır vəziyyətdə yaşayanlar üçün gərək şərait yaradaq. Eyni zamanda, bizim əsas məqsədimiz torpaqların azad edilməsi idi və o vaxt köçkünlərlə çoxsaylı görüşlər əsnasında deyirdim ki, bu şərait yaradılır, bu şərait yaxşıdır, - çadır şəhərcikləri, bilirsiniz ki, sonuncusu 2007-ci ildə ləğv edildi, - ancaq bu, müvəqqəti yaşayış yeridir. Torpaqlar azad olunandan sonra ondan daha yaxşı şərait yaradılacaq sizin doğma torpaqlarınızda və bu gün biz bunu görürük. Artıq beş yaşayış məntəqəsinə keçmiş köçkünlər qayıtmışlar. Bu il o yaşayış məntəqələrinin sayı 20-yə çatacaq. Bu il həm Xocalıda, həm Xankəndidə artıq həyat bərpa ediləcək, o cümlədən bu yaxın yerlərdə yerləşən Malıbəyli, Kərkicahan, Şuşanın Turşsu kəndləri də bərpa ediləcək, Ağdam şəhəri bərpa edilir və gələn il Ağdama da ilk köç başlanacaq, yəni quruculuq işləri geniş vüsət alıb.

Xocalıya gəldikdə isə biz sentyabrın 20-də öz suverenliyimizi tam bərpa edəndən sonra dərhal göstəriş verdim ki, ilk növbədə, Xocalıda xocalılıların evləri bərpa edilsin. Çünki mənfur düşmən qanlı soyqırımı törətmişdir, xocalıları öz doğma torpağından didərgin salmışdır. Üstəgəl Xocalının tarixi adını dəyişdirməyə çalışırdı və azərbaycanlıların evlərinə separatçıları, düşmənləri yerləşdirmişdi, o cümlədən xarici ölkələrdən. Görün, xalqımıza qarşı nə qədər böyük və çirkin cinayət törədilmişdir və yenə də deyirəm, dünya buna biganə qalmışdır. Ermənistan və onun havadarları hesab edirdilər ki, onları heç kim cəzalandırmayacaq. Onlar səhv etmişdilər, bu gün də səhv edirlər. Yeni yiyə axtarışında olan, onun-bunun qucağına sığınan Ermənistan bilməlidir ki, yeganə yol Azərbaycanın bütün şərtlərini qəbul etmək və Azərbaycana qarşı ərazi iddialarından əl çəkməkdir.

Biz Xocalı soyqırımını heç vaxt unutmayacağıq. Yenə də deyirəm, biz həm İkinci Qarabağ müharibəsi zamanı, həm antiterror əməliyyatı zamanı qisasımızı cinayətkarlardan aldıq, onları məhv etdik, Ermənistan ordusunu məhv etdik və iki dəfə kapitulyasiyaya imza atmağa məcbur etdik. Biz onlardan fərqli olaraq dinc əhali ilə heç vaxt müharibə aparmamışıq və bunu hər kəs görür və bilir. Həm 2020-ci ildə, həm keçən ilin sentyabr ayında apardığımız hərbi əməliyyatlar bütün beynəlxalq humanitar hüquqa uyğun şəkildə aparılmışdır və bunu hər kəs bilir və heç kim bizə heç bir irad tuta bilmir. Bu, bir daha xalqımızın böyüklüyünü göstərir. Halbuki hər birimizin ürəyində qisas hissi var, hər birimiz o qanlı tarixə qayıdanda, o dəhşətli video və fotosənədlərə baxanda bizi qəzəb boğur, 30 il yox, 300 il keçsə də, bu qəzəb bizi buraxmayacaq. Bu təbiidir, biz insanıq, ancaq eyni zamanda, biz böyük xalqın nümayəndələriyik. O xalqın ki, öz gücü ilə o əsarətdən çıxdı, o xalq ki, bir yumruq kimi birləşərək düşmənin belini qırdı, o düşmənin ki, onun arxasında o vaxt və bu gün böyük dövlətlər dayanır. O böyük dövlətlər dayanmasaydı, heç vaxt 1990-cı illərin əvvəllərində bizim torpağımız işğal altına düşməzdi. Biz o vaxt gücsüz idik, onların arxasında böyük qüvvələr dayanmışdır. Bu gün biz güclüyük və bəziləri bizə deyirlər ki, rəhm edək, amma onlar bizə rəhm etdilərmi ki?

Silahlı Qüvvələrimiz böyük peşəkarlıq, cəsarət göstərmişdir. Bütün dünya bunu görür və xüsusilə bu gün dünyanın müxtəlif yerlərində baş verən hadisələr, müharibələr, qanlı toqquşmalar bir daha onu göstərir ki, Azərbaycan Ordusu həm peşəkardır, həm vətənpərvərdir, həm də eyni zamanda, qısa müddət ərzində həlli mümkün olmayan kimi sayılan əməliyyatlar aparılmışdır, onlardan da biri, bəlkə də birincisi Şuşa əməliyyatıdır.

Bu gün isə biz buradayıq, burada olmağımız tarixi ədalətin tam bərpası deməkdir. Xocalı bu gün qurulur. Bütün digər ərazilərdə quruculuq işləri aparılır. Xocalı qurbanlarının bu gün ruhu şaddır, Allah onlara rəhmət eləsin.

* * *

Azərbaycan Respublikası Prezidentinin köməkçisi Anar Ələkbərov dövlətimizin başçısına Xocalı Soyqırımı Memorialı barədə məlumat verdi.



Bildirildi ki, Xocalı-Əsgəran avtomobil yolunun üzərində Heydər Əliyev Fondu tərəfindən yaradılacaq Xocalı Soyqırımı Memorialı bəşəriyyətə qarşı yönəlmiş dəhşətli qətliam haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycan xalqının milli yaddaşının qorunması və soyqırımı qurbanlarının xatirəsinin əbədiləşdirilməsi məqsədi daşıyır.

* * *

Dövlətimizin başçısı Xocalı Soyqırımı Memorialının təməlini qoydu.

# ATU-da Xocalı soyqırımının ildönümü ilə əlaqədar tədbir keçirilib

## Professor Sabir Əliyev: Şanlı Zəfər nəticəsində nəinki ərazi bütövlüyümüzü bərpa etdik, həm də qisasımızı aldıq

**Fevralın 26-da Azərbaycan Tibb Universitetində Xocalı soyqırımının 32-ci ildönümünə həsr edilmiş tədbir keçirilib.**

**Əvvəlcə faciə qurbanlarının və ərazi bütövlüyümüz uğrunda canından keçən qəhrəmanlarımızın əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.**

Universitetin Tədris və müalicə işləri üzrə prorektoru, professor Sabir Əliyev tədbiri açaraq, dünyada insanlığa sığmayan ən qəddar və amansız terror hadisələrindən biri olan Xocalı soyqırımı haqqında danışıb: "Bu gün biz hər il olduğu kimi, yenə də xalqımızın tarixi faciələrindən birini anmağa toplaşmışıq. XX əsrdə Azərbaycan xalqının yaşadığı faciələri, soyqırımları, qətliamları bəlkə də dünyada heç bir xalq yaşamayıb. Əgər biz keçən əsrin əvvəlindən danışmağa başlasaq, o zaman görərik ki, tarixin müxtəlif dönəmlərində - 1905, 1907, 1917 və 1918-ci illərdə mənfur düşmənlərimiz tərəfindən ölkəmizə hücumlar edilib, qətliamlar törədilib. Bundan əlavə, 1948 və 1988-ci illərdə xalqımız Qərbi Azərbaycandan həm deportasiyaya məruz qalıb, həm də ağır və faciəli günlər yaşayıb".

Sözünə davam edən prorektor deyib: "Lakin bunlardan ən böyüyü 1992-ci il fevral ayının 25-dən 26-na keçən qarlı-şaxtalı bir qış gecəsində baş verib. Erməni silahlı dəstələri keçmiş sovet ordusunun Xankəndi şəhərində yerləşən 366-cı alayının iştirakı ilə 7 min əhalisi olan Xocalıda genosid aktı həyata keçirdi və şəhəri yerlə-yeksan etdi. Bu hücum zamanı Xocalıda yalnız 3 minə yaxın insan qalmışdı. Çünki mühasirədə olduğu 4 aydan artıq vaxt ərzində əhalinin xeyli hissəsi şəhərdən çıxmaq məcburiyyətində qalmışdı. Soyqırımı zamanı 613 nəfər öldürüldü, 1000 nəfər müxtəlif yaşlı dinc sakin əlil oldu. 106 nəfər qadın, 63 azyaşlı uşaq, 70 qoca qətlə yetirildi. 8 ailə tamamilə məhv edildi, 25 uşaq hər iki valideynini, 130 nəfər valideynlərindən birini itirdi. Faciə baş verən gecə 1275 nəfər dinc sakin girov götürüldü, onların 200-ə yaxınının taleyi indiyədək məlum deyil. Hazırda işğaldan azad olunan ərazilərdə bərpa-tikinti işləri gedir. Bu günlərdə Xocalı şəhərində aparılan qazıntı işləri zamanı növbəti kütləvi məzarlıq aşkarlanıb və 5 nəfərin qalıqları tapılıb".

S.Əliyev diqqətə çatdırıb ki, bəşər tarixinin ən dəhşətli faciələrindən biri olan Xocalı soyqırımına tarixi qiymət verilməsi məhz Ulu Öndər Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra mümkün oldu: "Çox təəssüf ki, əksər ölkələr ikili standart nümayiş etdirərək Xocalıda törədilən soyqırımını görməzdən gəlirdi. Xocalıda baş verənlər uzun illər hər birimizin ürəyini göynətsə də, Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsində əldə etdiyi tarixi Zəfər yaralarımıza məlhəm, yaşadığımız acılara təsəlli oldu. Şanlı Zəfər nəticəsində nəinki ərazi bütövlüyümüzü bərpa etdik, həm də başımıza gətirilən faciələrin qisasını aldıq".

Sonra Xocalı faciəsinə həsr olunmuş videoçarx nümayiş olunub. Burada bir daha nəzərə çatdırılıb ki, müharibə qanunlarına zidd olaraq atıcı silahlar, ağır artilleriya mülki insanlara yönəlmişdi. Şəhərdə yalnız dinc, əliyalın sakinlər hədəfə alınmışdı. Beləliklə, Xocalıda baş verənlər dinc əhaliyə qarşı genosid aktı idi.

ATU-nun İctimai fənlər kafedrasının müdiri, professor Qoşqar Əliyev çıxışında bildirib ki, bütövlükdə Azərbaycan xalqına qarşı yönəlmiş Xocalı soyqırımı ermənilərin ağlasığmaz qəddarlığı və qeyri-insani cəza üsulları ilə bəşər tarixində bir vəhşilik aktıdır: "Dinc, əliyalın insanların bu cür amansızlıqla qətlə yetirilməsi düşmənin məkrli planı idi. Xocalıda əhaliyə qarşı törədilən bu amansızlıq düşmən üçün çox dərin məna daşıyırdı. Çünki həmin dövrdə ölkəmizdə dövlətçilik, ordu quruculuğu istənilən səviyyədə deyildi. Bundan istifadə edən düşmən isə bir-birinin ardınca şəhərləri, rayonları zəbt edirdi. Xocalı Qarabağda çox strateji əhəmiyyət daşıyan bir şəhər idi. Bundan başqa, törədilən soyqırımı Azərbaycan xalqına, yenicə müstəqilliyini bərpa etmiş ölkəyə zərbə olmaqla, həm də azərbaycanlıları sındırmaq, sarsıtmaq məqsədi daşıyırdı. Ümummilli Lider Heydər Əliyev demişdir: "Xocalı soyqırımı, eyni zamanda bütün bəşəriyyətə qarşı tarixi bir cinayətdir". Bu sözlərin mənası çox dərindir. Məhz Ulu Öndər hələ ilk dəfə Xocalı soyqırımına siyasi qiymət verərkən bu ifadələri işlədib. Bu ifadələr lakonik şəkildə həm Xocalı soyqırımının əsas mahiyyətini açıqlayır, həm də bu günümüzdə, gələcəyimizdə bu genosid hadisəsini tanıtmaq, bəşəriyyəti erməni vəhşiliklərindən qorumaq istiqamətində çox tutarlı bir faktdır".






Q.Əliyev onu da əlavə edib ki, Xocalı soyqırımının dəhşətlərini bizə çatdıran Azərbaycanın Milli Qəhrəmanı Çingiz Mustafayevə də borcluyuq: "Biz məhz həmin videogörüntülərin və ölkəmizdə soyqırımın tanıdılması istiqamətində aparılan tədbirlərin nəticəsində başımıza gətirilən genosidi bütün dünyaya nümayiş etdirə bildik. İndi yalnız ölkəmizdə deyil, həmçinin respublikamızdan kənarda da soyqırımı qurbanlarının əziz xatirəsi yad edilir".

İctimai səhiyyə fakültəsinin tələbəsi Fidan Rəhmanlı və Müalicə-profilaktika fakültəsinin tələbəsi Selcan İsazadənin Xocalı soyqırımına dair bədii-publisist mahiyyətli çıxışları tədbir iştirakçılarını bir daha yaddaşlardan silinməyən o qanlı faciəyə qaytarıb. Onlar tariximizin şanlı və qanlı səhifələrinin gələcək nəsillərə ötürülməsində belə tədbirlərin yüksək vətənpərvərlik ruhu aşılaması baxımından əhəmiyyətini vurğulayıblar.

Toplantını yekunlaşdıran professor S.Əliyev millətimizin tarixində baş vermiş faciələrin ildönümlərinin qeyd edilməsində universitet tələbələrinin aktivlik nümayiş etdirməsini təqdirəlayiq hal kimi qiymətləndirib: "Bu günün gəncləri olan sizlər qan yaddaşımız olan Xocalı soyqırımını heç vaxt unutmamalı və əsl həqiqətləri dünya ictimaiyyətinə çatdırmaq üçün əlinizdən gələni etməlisiniz".

# Fakültə həmkarlar təşkilatının hesabat-seçki yığıncağı baş tutub

## Universitet Həmkarlar İttifaqı Komitəsinin növbəti konfransına nümayəndələr də seçilib

**Fevralın 23-də ATU-nun İctimai səhiyyə fakültəsi Həmkarlar İttifaqı Təşkilatının hesabat-seçki yığıncağı keçirilib.**

İclasın sədri seçilən fakültənin dekanı, dosent Qalina Qəniyeva əvvəlcə gündəlikdə duran məsələləri diqqətə çatdırıb. Bundan sonra İctimai səhiyyə fakültəsi Həmkarlar İttifaqı Təşkilatı bürosunun 2022-2023-cü illərdəki fəaliyyəti haqqında təşkilatın sədri Səidə Hacıyevanın hesabatı dinlənilib.

O, hesabat dövrü ərzində görülən işlər haqqında məlumat verərək bildirib ki, gündəlik işimizdə Universitet Həmkarlar İttifaqı Komitəsinin qəbul etdiyi qərarları rəhbər tutmuşuq: "Fakültə Həmkarlar Təşkilatının işinə Universitet Həmkarlar İttifaqı Komitəsinin sədri, Cahangir Qasımov və ümumiyyətlə HİK rəyasət heyəti həmişə böyük qayğı ilə yanaşıb. Biz də universitet üzrə keçirilmiş Novruz bayramı, Zəfər bayramı, "Şuşanın dağları" və "Bütövləşən Azərbaycan" adlı silsilə tədbirlərin təşkilində fəal iştirak etmişik. Azərbaycan Dövlət Filarmoniyasında keçirilən Ulu Öndər Heydər Əliyevin 100 illiyinə həsr olunmuş tədbirdə fəal iştirakına görə Universitet HİK tərəfindən "Təbib" istirahət düşərgəsində dincəlməsinə şərait yaradılmış tələbələr içərisində fakültəmizin tələbələri də olub. Bundan əlavə, iki il ərzində Yeni il, Dünya Azərbaycanlılarının Həmrəylik Günü və



Novruz bayramı ərəfəsində əməkdaşlarımızın uşaqları üçün 240 şənlik bileti verilib və kafedralar üzrə paylanılıb".

Hesabatda şəhid həkimlərin övladları üçün xüsusi hazırlanmış hədiyyələrin verilməsi, fakültənin bir neçə əməkdaşına maddi yardımların göstərilməsi də öz əksini tapıb. Həmçinin fakültə əməkdaşlarının "Təbib" və "Şəfa" istirahət düşərgələrində istirahətinə şərait yaradıldığı vurğulanıb. İkinci Qarabağ müharibəsi zamanı Tədris Cərrahiyyə Klinikasında müalicə alan yaralılara maddi yardım edilməsi, o cümlədən 6 şəhid ailəsinə 300 manat məbləğində pul vəsaiti verilməsi qeyd olunub.

Fakültə həmkarlar təşkilatının sədri bütün büro üzvlərinin fakültədə nizam-intizamın təmin olunmasını əsas tutaraq, təhkim olunduqları sahədə birlikdə çalışdıqlarını söyləyib. Görülən müsbət işlərə baxmayaraq, təşkilatın işində mövcud olan bəzi çatışmazlıqların gələcəkdə aradan qaldırılması üçün əllərindən gələni əsirgəməyəcəklərini deyib.

Yoluxucu xəstəliklər kafedrasının müdiri, dosent Cəlal İsayev, Fizioterapiya və tibbi reabilitasiya kafedrasının müdiri, dosent Paşa Mehdiyev, Tibbi mikrobiologiya kafedrasının müdiri, professor Həqiqət Qədirova və Elmi Tədqiqat Mərkəzinin dosenti Şimit Qasımov hesabatla bağlı fikirlərini bölüşüblər. Hesabat dövründə Fakültə HİT-nin fəaliyyətini yüksək qiymətləndirən natiqlər, Səidə Hacıyevanın təkcə fakültənin deyil, universitetin ictimai həyatındakı rolundan da məmnunluqla söhbət açıblar.

Daha sonra gündəlikdə duran digər məsələlərə baxılıb. Fakültə HİT-nin yeni bürosu və Universitet Həmkarlar İttifaqı Komitəsinin 2024-cü il konfransına nümayəndələr seçilib.

Yeni büro Səidə Hacıyevanı yenidən yekdilliklə Fakültə Həmkarlar İttifaqı Təşkilatının sədri seçib.

# Tələbələrimizin elmi fəaliyyəti Niderlandda yüksək qiymətləndirilib

## Onların konqresdə iştirakı üçün lazım olan bütün xərclər Azərbaycan Tibb Universiteti tərəfindən qarşılanıb

**Azərbaycan Tibb Universitetində kifayət qədər istedadlı tələbələr təhsil alır. Onların barəsində vaxtaşırı yazır, oxuculara təqdim edirik. Sevindirici haldır ki, istedadlı tələbələrimiz öz bacarıqlarını, elmi-tədqiqat işlərini təkcə universitet çərçivəsində deyil, eyni zamanda beynəlxalq arenada da uğurla davam etdirirlər. Artıq onların sədaları nüfuzlu beynəlxalq konfranslardan, tədbirlərdən gəlir.**

Bu dəfə onlardan ikisi - II Müalicə-profilaktika fakültəsinin 4-cü kurs tələbələri Fəridə Ağayarlı və Səbinə Həsənzadə haqda danışacağıq. Bu yaxınlarda onlar Niderlandın University Medical center of Groningen universitetində keçirilən, 64 ölkədən 800-ə yaxın tələbənin qatıldığı “İnternational Students Conqress of medical sciences” beynəlxalq konqresində iştirak edib, hər ikisi uğur qazanıb. Bununla yanaşı, elmi fəaliyyəti münsiflər tərəfindən yüksək qiymətləndirilən Fəridə Niderlandda 2 həftəlik tədqiqat aparmaq layihəsi qazanıb.

Hər iki tələbəmiz konqresin Azərbaycan üzrə səfirləri seçiliblər. Tədbirlə bağlı ətraflı məlumat almaq üçün səfir tələbələrimizlə görüşdük.

Fəridə Ağayarlı 2001-ci ildə Sumqayıtda anadan olub. Sumqayıt şəhər 4 saylı orta məktəbini bitirib. 650 bal toplayaraq 2020-ci ildə Azərbaycan Tibb Universitetinə daxil olub.

İlk elmi işi İnsan anatomiyası və tibbi terminologiya kafedrasında Ülviyyə Cəfərovanın rəhbərliyi altında “Sinovitlər zamanı oynaqlarda baş verən dəyişikliklər” mövzusunda olub: “Bu elmi işim universitetimizdə yüksək qiymətləndirildi və sonra Tacikistana göndərdim, orada 2-ci yerə layiq görüldüm.

2-ci elmi işim Patoloji anatomiya kafedrasında Ayaz Əfəndiyev və dosent Müşfiq Orucovun rəhbərliyi altında “Artıq bədən çəkisinin osteoartritdə rolu” mövzusunda oldu. Bu elmi işlə Ukraynada və Rusiyada keçirilən beynəlxalq konqreslərdə çıxış etdim.

3-cü elmi işim isə Farmakologiya kafedrasında professor Vəli Əsmətovun rəhbərliyi altında “Etanolun xroniki təyini fonunda dişi ağ siçovulların qanında cinsi hormonların qatılığının dəyişilməsnə pirasetamın təsiri” mövzusunda idi. Elmi işim Farmakologiya kafedrasında 1-ci yerə layiq görüldü. Ölkəmizdə keçirilən beynəlxalq konqresdə “İlin ən aktiv tələbəsi” mükafatı ilə təltif olundum”.




F.Ağayarlı İSCOMS (International Student Congress of medical sciencies) konqresində iştirakından da söhbət açdı. Bildirdi ki, 2 il ərzində Niderlandda keçirilən konqresi araşdırıb: “İSCOMS Niderlandın Groningen şəhərində keçirilən tibb tələbələrinin beynəlxalq konqresidir. Vəli müəllimin elmi rəhbərliyi altında yazdığım bu işi konqresə göndərdim və qəbul aldım. Elmi iş haqda çıxışım münsiflərin marağına səbəb oldu, ən yaxşı elmi işlərdən biri olaraq seçildi.

Onu da qeyd edim ki, bu konqresi digərlərindən fərqləndirən cəhət tədqiqat təqaüdü proqramının olmasıdır. Təqaüdün miqdarı isə 6000-10000 avro arasında dəyişir. Konfransda çıxış edən yüzlərlə tələbə arasında yalnız 20 nəfərə bu təqaüddən yararlanmaq şansı verilir. Mən də o 20 tələbədən biri oldum. Tədqiqatı İSCOMS-da qalib gələn ilk azərbaycanlı olduğum üçün qürur duyuram”.

Fəridə 4-cü elmi işini Niderlandda yazıb. “İrradiance of underneath phototherapy device: what is the effect of side and covering the biliblanket device?” mövzusunda elmi işin rəhbəri holland Christian Hulzebos olub: “Bu elmi işlə Niderlandda professor-müəllim heyəti qarşısında çıxış etdim. Maraqla qarşılandı. Hazırda mən bu konqresin səfiriyəm. Səfir kimi əsas məqsədim Azərbaycanda olan tibb tələbələrini bu konqresə təşviq etməkdir”.

Səbinə Həsənzadə 2003-cü ildə Gəncədə anadan olub. Mirzə Abbas Abbaszadə adına Gəncə şəhər tam orta məktəbində təhsil alıb. 560 balla Azərbaycan Tibb Universitetinə daxil olub.

Tələbə Elmi Cəmiyyətində sədr müavini kimi beynəlxalq əlaqələrin təşkil olunması istiqamətində fəaliyyət göstərir: “Elmi-tədqiqat fəaliyyətinə 2-ci kursdan başlamışam. İlk elmi işim İnsan anatomiyası və tibbi terminologiya kafedrasında Ülviyyə Cəfərovanın rəhbərliyi altında "Karpal-tunel sindromunun morfoloji əsaslandırılması" mövzusunda olub. 2022-ci ilin aprelində Tacikistanın paytaxtı Düşənbədə keçirilən beynəlxalq konfransa təqdim etdim, 2-ci yerə layiq görüldü. Düşənbədən dönəndən sonra rektorumuz bizi qəbul etdi. Uğurlarımıza sevindiyini bildirdi, təbrik etdi, tövsiyələrini verdi. Mən də bundan ruhlanaraq, tədqiqatlarımı davam etdirdim”.

Səbinə 2-ci elmi işini 3-cü kursda təhsil alarkən Patoloji anatomiya kafedrasında Taryel Ömərov və Elçin Əkbərovun elmi rəhbərliyi ilə "Artıq piylənmənin müxtəlif yaş və cins qruplarına təsiri" mövzusunda hazırlayıb. Bu elmi işini "Stavropol Beynəlxalq Gənclər Forumu"nda onlayn formatda təqdim edib: “3-cü elmi işim isə Farmakologiya kafedrasında professor Vəli Əsmətovun elmi rəhbərliyi altında "Etanolun xroniki təyini fonunda dişi ağ siçovulların qanında cinsi hormonların qatılığının dəyişilməsinə meksidolun təsirinin tədqiqi" mövzusunda oldu. Elmi rəhbərim ilə birgə tədqiqat işi apardım. TEC-in təşkil etdiyi konfransa təqdim etdim, maraqla qarşılandı. Bununla kifayətlənmədim, elmi işi Ukraynada keçirilən BİMCO-ya (Bukovinian İnternational Medical Congress) göndərdim və məqalə jurnalda çap olundu. Həmçinin İSCOMS beynəlxalq konqresinə təqdim etdim. Konqresdə farmakologiya sessiyası üzrə 1-ci yerə layiq görüldüm.

Artıq konqresin səfiri kimi fəaliyyət göstərirəm. Çalışıram ki, tələbələrimiz konqreslə bağlı ətraflı məlumata malik olsunlar. Konqresin onlara verəcəyi faydaları, elmi işləri lazımi formaya salmağı, müraciətin şərtlərini və s. izah edirəm”.



Qeyd edək ki, tələbələrimizin konqresdə iştirakı üçün lazım olan bütün xərclər Azərbaycan Tibb Universiteti tərəfindən qarşılanıb. Səfir tələbələrimiz hərtərəfli dəstəyə görə universitetimizin rektoru, professor Gəray Gəraybəyliyə, dekan İsrail Məhərrəmbəyliyə, professor Müşfiq Həsənova və elmi rəhbərləri, professor Vəli Əsmətova təşəkkürlərini bildirdilər.

**Qabil ZİMİSTANOĞLU**

# Uşaqlarda raxit – nədən bilək və necə qarşısını alaq?

## Professor Nailə Sultanova: Bu xəstəliyin erkən diaqnostikası və profilaktikası gələcək nəslin sağlamlığı baxımından mühüm məsələdir

**“Raxit - sümük toxumasının qeyri-kafi minerallaşması nəticəsində sümüyün formalaşmasının pozulması ilə təzahür edən, körpə və erkən yaşlı uşaqların xəstəliyidir. Aparıcı etioloji amili həyatın ilk iki ilində, uşaqların intensiv böyümə dövründə vitamin D və onun metabolitlərinin, kalsium və fosfor mübadiləsin çatışmazlığıdır”. Bunu ATU-nun II Uşaq xəstəlikləri kafedrasının müdiri, professor Nailə Sultanova uşaqlarda raxit-D vitamini çatışmazlığı ilə bağlı “Təbib”in əməkdaşı ilə söhbətində bildirib.**



Professor vurğulayıb ki, hazırda vitamin D-nin immun sisteminə, apoptoza, ürək-damar, reproduktiv və başqa sistemlərə təsir mexanizminin öyrənilməsi son illərin nailiyyətləri kimi qiymətləndirilir: “Müasir ədəbiyyatlarda uşaqlar arasında D vitamini çatışmazlığının bir çox xəstəliklərin ağırlaşmasına səbəb olduğu açıqlanır. Bu vitamin uşaqların həyatında çox böyük əhəmiyyətə malikdir. Erkən yaş dövrlərində onun çatışmazlığı zehni inkişafın ləngiməsinə, depressiyaya, sümük toxumasının inkişafına mənfi təsir göstərməklə yanaşı, immun sisteminin zəifləməsinə də səbəb olur. Bir sıra tədqiqatçılar D vitaminini orqanizmdə baş verən bir çox mübadilə proseslərində fəal iştirak etdiyi üçün hormon da hesab edirlər. D vitamini bağırsaqlarda kalsium və fosfatların sorulmasında, mineral duzların sistemli daşınmasında və sümüklərin minerallaşması prosesində mühüm rol oynayır, həmçinin böyrəklər tərəfindən kalsium və fosfatların xaric olunmasını tənzimləyir. D vitamini çatışmazlığının əsas klassik klinik təzahürlərini raxit, osteomalasiya və sınıq riskinin olması təşkil edir. Statistik məlumatlara əsasən, dünya əhalisinin 70%-ə qədəri müxtəlif dərəcələrdə D vitamini defisitindən əziyyət çəkir”.

Sözünə davam edən Nailə xanım vurğulayıb ki, uşaqlarda raxitin klinik əlamətləri 2-3 aylıqda müşahidə edilir: “Valideynlərin narahatlığına səbəb olan hallar uşağın oyanıq olması, kəskin səslərdən diksinməsi, çox tərləməsi, başın ənsə nahiyəsində tüklərin tökülməsi, turş qoxulu yapışqan tərin təsirindən dərinin qıcıqlanması, əzələ tonusunun azalması (uşağın fiziki inkişafı ləngiyir - yaşıdlarından gec oturmağa, iməkləməyə və ayaq üstə durmağa başlayır), böyük əmgəyin kənarlarının yumşaq olmasıdır. Laborator olaraq biokimyəvi müayinədə fosforun miqdarının azalması, fosfotazanın aktivliyinin artması təyin olunur. Bu əlamətlər 2-3 həftə davam edir”.

Mütəxəssisin sözlərinə görə, xəstəliyin «çiçəklənmə» dövründə artıq sümük toxumasının zədələnməsi deformasiyalar şəklində özünü göstərir. Kəllə sümüklərində: ənsə nahiyəsində kraniotabes, burnun yəhərəbənzər, kəllə sümüklərinin kvadrat formada olması, alın və təpə qabarlarının böyüməsi - «olimpik alın», əmgəklərin və kəllə tikişlərinin açıq qalması, dişlərin gec çıxması. Döş qəfəsi sümüklərində: qabırğaların sümük hissəsinin qığırdağa keçən yerində «raxit təsbehləri» olması, döş qəfəsində «çəkməçi döşü», «toyuq döşü» kimi deformasiyalar, Harison şırımı. Onurğa sütununda: kifoz, lordoz, skolioz kimi deformasiyalar. Ətraf sümüklərində: biləklərin qalınlaşıb «raxit bilərziyi» şəklində olması, çanaq sümüklərində daralma (yastı raxit çanağı) və borulu sümüklərdə deformasiya, bud, qamış, incik sümüklərinin diafizlərində osteomolyasiya nəticəsində sümüklərdə «X-vari», «O-vari» deformasiyalar, «coxavara», «coxa valqa». Borulu sümüklərin rentgenoqrafiyasında osteoporoz, metafizlərin qədəhəbənzər genişlənməsi, kortikal qatın nazik olması, böyümə zonası kənarlarının girintili-çıxıntılı olması aşkar edilir. Bu mərhələdə qanın biokimyəvi analizində D hipovitaminozu, hipofosfatemiya, hipokalsiemiya, qələvi fosfatazanın artması qeyd olunur. Rekonvalessensiya dövründə uşağın ümumi vəziyyəti yaxşılaşır, sinir və vegetativ pozuntular bərpa olunsa da, əzələ hipotoniyası və sümüklərdəki deformasiyalar qalır”.

Raxitin müalicəsindən də bəhs edən həkim qeyd edib ki, bu, kompleks şəkildə aparılır: “Burada əsas məqsəd kalsium-fosfor mübadiləsini normallaşdırmaq, metabolik asidozu aradan qaldırmaqla D vitamini defisitini bərpa etməkdən ibarətdir. İlk olaraq raxitin müalicəsində uşaqların həyat keyfiyyətini yaxşılaşdırmaq, düzgün qida rejiminin olması, Günəş vannaları qəbul etmək, gündəlik rejimi yaxşılaşdırmaq və s. kimi qaydalara riayət etmək lazımdır. D vitamini preparatları, kalsium və maqnezium tərkibli dərmanlar, bir qrup vitaminlər polivitamin şəklində tətbiq olunur. Son illər D vitamini preparatlarının daha çox sulu formalarına üstünlük verilir. Sulu məhluldan istifadə edərkən nəinki vaxtında doğulan, həmçinin vaxtından əvvəl doğulan körpələrdə, mərkəzi sinir sisteminin perinatal zədələnməsi və digər patoloji vəziyyətləri olan uşaqlarda həzm sisteminin yetişməməsini nəzərə alaraq xolekalsiferolun daha yaxşı sorulmasını təmin etmək olar.

Beləliklə, raxit erkən yaş dövrünün ciddi xəstəliklərindən olub, pediatrların və valideynlərin xüsusi diqqətini tələb edən defisit vəziyyətidir. D vitamini defisitinin bütün dünya üzrə «epidemiya» xarakteri alması raxitin inkişafında əhəmiyyət daşıyan bütün amillərə diqqətlə yanaşılmasını, diaqnostika və müalicəsinin müasir elmi prinsiplərə əsasən təşkil edilməsini önə çıxarır”.

**ATU-nun rektoru, professor Gəray Gəraybəylinin sərəncamı ilə universitetdə Tibb və sağlamlıq elmləri və Təcili tibb kafedralarının yaradılması haqda məlumat vermişdik. Eyni zamanda bildirmişdik ki, yaz semestrində stomatologiya ixtisası üçün Ortodontiya kafedrası fəaliyyətə başlayacaq. Artıq 16 fevral 2024-cü ildən etibarən kafedra fəaliyyət göstərir.**



# Azərbaycanda ortodontik xidmətin formalaşmasına böyük töhfə

## ATU-nun yeni kafedrası günün tələblərinə cavab verəcək mütəxəssislər hazırlayacaq

"Təbib" qəzetinə bu barədə açıqlama verən kafedranın müdiri, dosent Ramidə Şadlinskaya bildirib ki, ortodontiya stomatologiyanın diş-çənə anomaliyalarının etiologiyasını, patogenezini, diaqnostikası və müalicə üsullarının xüsusiyyətlərini öyrənən bir sahəsidir: "Diş-çənə sisteminin anomaliyaları üz-çənə nahiyəsinin xəstəlikləri arasında ilk yerlərdən birini tutur. Yerli tədqiqatçıların hesablamalarına görə, Azərbaycanda uşaqlar arasında diş-çənə anomaliyaları və onların ağırlaşmalarının yayılması 75-80% təşkil edir. Diş-çənə anomaliyaları üz-çənə nahiyəsində kobud morfoloji və funksional pozğunluqlarla müşayiət olunur. Bu baxımdan ölkəmizdə ortodontik yardımın təşkilində yüksək keyfiyyətli və yüksək ixtisaslı yanaşma tələb olunur. Ortodontiyanın stomatologiyanın digər sahələrindən köklü şəkildə fərqləndiyini qeyd etmək çox vacibdir. Müasir dünya stomatoloji praktikasında ortodontlara digər ixtisasların stomatoloqları ilə müqayisədə daha yüksək nəzəri və praktiki hazırlıq tələbləri qoyulur. Avropa İttifaqı, Asiya, Şimali və Cənubi Amerikada ortodontların yüksək səviyyədə hazırlığı buna sübutdur. Ortodontiya təhsilinin tarixi 100 ildən artıq bir dövrü əhatə edir. İlk ortodontiya məktəbi 1886-cı ildə ABŞ-da açılıb və o vaxtdan bəri ABŞ-da 87 universitet, Böyük Britaniyada 15 aparıcı universitet, Almaniyada 25 universitet və bir çox digər Avropa, Şimali və Cənubi Amerika, Afrika, Asiya və Avstraliya universitetləri yerli və xarici tələbələr üçün diplomdan sonra ortodontik təhsil proqramları təklif edir. Bu gün dünyada Ümumdünya Ortodontlar Assosiasiyasının (WFO) himayəsi altında birləşmiş, rəsmi qeydiyyatdan keçmiş 114 ortodontik assosiasiya fəaliyyət göstərir. Qardaş Türkiyədə ortodontiya ixtisası 1927-ci ildən rəsmi olaraq tanınıb və hazırda ölkədə bakalavr və rezidentlərin hazırlığı ilə məşğul olan 144 ortodontiya kafedrası fəaliyyət göstərir. Təhsil bütün tibb fakültələrində aparılır. Postsovet məkanının bütün respublikalarında ortodontiya ayrıca ixtisasdır və bir çox universitetlər ortodontiya proqramı üzrə diplomdansonrakı təhsil proqramı təklif edir".




Azərbaycanda ortodontik xidmətin formalaşma mərhələsində olduğunu və yeni müvafiq standartların işlənib hazırlanmasını tələb etdiyini vurğulayan R.Şadlinskaya, ölkəmizdə ortodontiya fənninin ötən əsrin 70-ci illərinə qədər tədris olunmadığını söyləyib. Onun sözlərinə görə, ilk dəfə ortodontiya ixtisasının tədrisi 1979-cu ildə Ramiz Həşimovun rəhbərliyi ilə Cərrahi stomatologiya kafedrasının nəzdində təşkil edilib. Sonralar isə ortodontiya üzrə təhsil proqramının tədrisi Uşaq stomatologiyası kafedrasında aparılıb.

Hazırda stomatoloqlarımız arasında ortodontiya ixtisasına maraq artır ki, bu da müasir həyatın xüsusiyyətləri ilə izah edilir. Yeni kafedranın da bu zərurətdən yaradıldığını deyən müsahibimiz respublikamızda ortodontların hazırlıq səviyyəsi ilə dünya standartları arasında müəyyən uyğunsuzluğun olduğunu təəssüf hissi ilə qeyd edib: "Müasir reallıqlarda əhaliyə ortodontik yardımın daha böyük faizi ortodontik müalicənin əsasları üzrə təhsil almamış, anatomiya, biologiya, biomexanika, insan orqanizminin böyüməsi və inkişafı, eləcə də ortodontik müalicə üzrə dərin bilikləri olmayan həkimlər tərəfindən həyata keçirilir. Bu gün stomatoloqların böyük əksəriyyəti gəlir əldə etmək üçün, çox vaxt heç bir tibbi göstəriş olmadan əhaliyə ortodontik müalicə təklif edir. Ortodontiyanın nəzəri əsaslarını lazımi səviyyədə bilməyən və lazımi praktiki bacarıqlara malik olmayan bu həkimlər faktiki olaraq xəstələrin sağlamlığına xələl gətirir və bir sıra hallarda diş-çənə sistemində mövcud pozğunluqları daha da ağırlaşdırırlar".

R.Şadlinskaya bu gün Azərbaycanın innovativ inkişafı üçün hökumət və dövlət başçısı tərəfindən elm və təhsil sahəsində aparılan uğurlu islahatların tibb elmi və onun mühüm sahələrindən biri olan stomatologiyadan da yan keçmədiyini diqqətə çatdırıb. Qeyd edib ki, bu nöqteyi-nəzərdən ATU rektorunun Ortodontiya kafedrasının yaradılması haqqında sərəncamı ölkəmizin tibb təhsilində və stomatologiya sahəsində daha dərin bilik və bacarıqlar əldə etmək imkanı yaradacaq.

Bütün lazımi avadanlıqlarla tam təchiz olunan və yüksək təcrübəli peşəkar heyətin fəaliyyət göstərdiyi gənc kafedranın hazırda 12 rezidentinin öz kuratorlarının rəhbərliyi altında klinik və tədqiqat proqramlarında iştirak etdiyini söyləyən kafedra müdiri bildirib ki, rezidentlər həm kafedranın əməkdaşları tərəfindən, həm də dəvət olunan mütəxəssislər tərəfindən aparılan mütəmadi mühazirə saatlarına qatılırlar. Bu da onların tibbi biliklərini artırmaq və praktiki bacarıqlarını genişləndirmək üçün mühüm bir imkandır.

Kafedranın gələcək fəaliyyət planlarından da danışan dosent R.Şadlinskaya vurğulayıb ki, əsas məqsəd ortodontiya sahəsində ətraflı tədqiqat və təhsil proqramlarında iştirak etmək, müasir təhsil metodlarının tətbiqi ilə tələbələrin öyrənmə təcrübəsini zənginləşdirmək, ortodontiya sahəsindəki yeniliklərlə cəmiyyəti məlumatlandırmaq və üz-çənə nahiyəsinin sağlamlıq mədəniyyətinin təbliğinə töhfə verməkdir. Bundan əlavə, elmi istiqamətdə aparılan tədqiqat nəticələrini prestijli elmi jurnallarda və beynəlxalq konfranslarda təqdim etmək, eləcə də qlobal təcrübə və bilik əldə etmək üçün beynəlxalq mübadilə proqramlarına qatılmaq yeni yaradılan kafedranın gələcək planlarına daxildir.

**Arif MƏMMƏDLİ**

# Miqrenlə qarışdırılan baş ağrıları

## Tanınmış mütəxəssis tələbə-rezidentlərə məruzə oxuyub

**ATU-nun Tədris Terapevtik Klinikasında Nevrologiya kafedrası ilə Rezidentura və magistratura şöbəsi növbəti birgə seminar keçirib. Tələbə-rezidentlərlə yanaşı, müəllimlərin də qatıldığı tədbiri Nevrologiya kafedrasının müdiri, professor Aytən Məmmədbəyli açıb.**
**O, seminarın çox maraqlı bir mövzuya - "Gərginlik tipli baş ağrıları"na həsr edildiyini, məruzəçinin isə ölkəmizdə miqren və baş ağrıları üzrə akademik təhsil almış, Beynəlxalq Baş Ağrıları Cəmiyyətinin qrant mükafatçısı, elmi-tədqiqat və klinik təcrübəyə malik yeganə mütəxəssis olduğunu diqqətə çatdırıb.**

Məruzəçi haqqında ətraflı məlumat verən A.Məmmədbəyli bildirib ki, hazırda Respublika Diaqnostika Mərkəzində çalışan dr. Sərxan Əmirquliyev Avropada ən böyük mərkəzlərdən biri sayılan Danimarka Baş Ağrıları Mərkəzində işləyib. O, burada klinik təcrübə ilə yanaşı, həm də Kopenhagen Universitetinin Nevroloji fakültəsində miqren patofiziologiyasının öyrənilməsinə həsr olunmuş beynəlxalq randomizəolunmuş tədqiqatlarda araşdırmaçı-həkim vəzifəsində çalışıb. Professor əlavə edib ki, Sərxan həkim dünyada məşhur olan "Headache" və "Cephalalgia" kimi jurnallarda dərc edilmiş elmi məqalələrin müəllifidir.

S.Əmirquliyev, həmçinin Almaniyanın Kristian Albrecht Universitetində "Miqren və baş ağrıları" üzrə magistr dərəcəsi alıb, bu ölkədəki "Schmerzklinik" klinikasında dəfələrlə praktik ixtisasartırma kurslarında iştirak edib.






Bundan sonra söz məruzəçiyə verilib. Çıxışında baş ağrılarının epidemiologiyası, patofiziologiyası, diaqnostikası, müasir müalicə üsulları və profilaktikasından bəhs edən Sərxan həkim bildirib ki, stress baş ağrısının bir növüdür: "Gərginlik baş ağrısı (tension headache) çiyin və boyun əzələlərinin gərginliyi nəticəsində yaranır. Stressdən qaynaqlandığı düşünülsə də, stress artıran faktordur. Daha çox başda ağırlıq, basılma, sıxılma olaraq ifadə edilir. Gərginlik başağrısı ürəkbulanma, qusma, işıqdan narahat olma kimi miqren xüsusiyyəti daşımır. Kəmlənmiş siqnal, baş ağrısı, təzyiq və gərginlik şəklində ağrı adətən ikitərəfli olur. Ağrı boynun və başın arxasından boyuna və gözlərə yayılır. Gündəlik həyat fəaliyyətləri ağrı şiddətini artıra bilməz. Bu ağrılar qadınlarda daha çox müşahidə olunur.

Bəzən bu, miqren ağrıları ilə qarışdırıla bilər. Gərginlik tipli baş ağrılarında (GTBA) qusma və bulanma nadir və mülayimdir. İşığa və səsə həssaslıq var, amma miqrendəki qədər deyil".

Sözünə davam edən mütəxəssis əlavə edib ki, miqrenə adətən GTBA olan bir xəstədə rast gəlinir. GTBA bəzən miqren hücumlarını başlada bilər: "Bəzi xəstələrdə, iki ağrı arasında fərq qoymaq bəzən mümkün olmur. Ağrı 30 dəqiqədən 7 günə qədər davam edə bilər. Xəstələr tez-tez yuxusuzluq və yuxu problemləri yaşayır. Qadınlarda post-travmatik stress pozğunluğu, depressiya və depressiv əlamətlər görünür. Nəticə tam olaraq bilinmir: seretoninə həssaslıq və gərginlik nəticəsində boyun əzələlərində olan mərkəzi ağrı olduğu düşünülür".

Sonda diskussiya şəraitində müzakirələr aparılıb və iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

Seminarda Tədris Terapevtik Klinikanın baş həkimi Fəridə Hacıyeva, Rezidentura və magistratura şöbəsinin müdir müavini, assistent Namiq Xəlilov və mütəxəssislər iştirak ediblər.

## QURBAN OLUM

Xocalının hər daşına,
Hər bir qarış torpağına,
İtkin düşən balasına,
Balasının laylasına,
Sızıldayan yarasına,
Ağrısına qurban olum!

Xocalının bağlarına,
Ağ çalmalı dağlarına,
Büllurlu bulaqlarına,
Şaqqıldayan çaylarına,
Mənsizləşən sularına,
Arxlarına qurban olum!

Xocalının təndirinə,
Təndirinin çörəyinə,
Sədaqətli əsgərinə,
Böyüyünə, kiçiyinə,
Vətən deyən hər kəsinə,
Körpəsinə qurban olum!

Xocalının xiffətinə,
Sinəsinin nisgilinə,
Şeytanlara nifrətinə,
Hər didərgin düşəninə,
Hər qəbirsiz itkininə,
Zillətinə qurban olum!

Xocalının tarixinə,
Tarixi qədimliyinə,
Vətənpərvərlik irsinə,
Bu irsə məhəbbətinə,
Məhəbbətinin gücünə,
Sevgisinə qurban olum!

Xocalının şəhidinə,
Əlifli Əliflərinə,
Döyüşkən igidlərinə,
Sarsılmayan qeyrətinə,
Qazandığı şöhrətinə,
Qüdrətinə qurban olum!

Xocalının örüşünə,
"Dəmir yumruq!" – döyüşünə,
Zəfərli Sərkərdəsinə,
Zəfərinin bu gününə,
Azadlığın gəlişinə,
Görüşünə qurban olum!

**Mübariz Allahverdiyev**
**19.11.2023**

# "Vaqif Qələndər metodikası" dünyada tədris olunur

## Professorun illər öncə qollarını yerinə bərpa etdiyi pasiyentlər indi də normal həyatlarını yaşayır

**1999-cu ilin adi yay günlərinin birində Türkiyənin aparıcı televiziya kanallarında və nüfuzlu qəzetlərində belə bir sensasiyalı xəbər yayıldı: "İstanbulun Çərkəzköy məhəlləsində yerləşən toxuculuq sexində 28 yaşlı Mustafa maşında təmizlik işi apararkən dəzgah onun qolunu dirsəkdən qoparıb. Yaralını 7 xəstəxanaya aparsalar da, heç bir həkim qəbul etməyib. Nəhayət, Çapa xəstəxanasına gətiriblər. Gənc azərbaycanlı həkim Vaqif Qələndər bu ağır işi öz öhdəsinə götürüb və xəstə üzərində 9 saat ərzində gərgin əməliyyat apararaq misilsiz qələbə qazanıb".**



Sonradan bu xəbər bütün dünyaya yayılıb və hamı gənc həkimin apardığı ağır əməliyyatdan danışıb. Əslində kəsilmiş qolun yerinə birləşdirilməsi tibb aləmində bir neçə dəfə olub. Lakin mütəxəssislərin fikrincə, Mustafanın qolunun bərpası o zamankı dünya standartlarına görə mümkün deyildi. Çünki dəzgah qolu qoparmaqla yanaşı, əzmişdi də.

Qeyd edək ki, "Təbib" qəzeti də hadisə ilə bağlı 8 sentyabr 1999-cu il tarixli sayında Azərbaycan Tibb Universitetinin yetirməsi olan gənc həkim Vaqif Qələndər haqqında "Yaxşı oğul başucalığı gətirər" başlıqlı məqalə dərc etmişdi.

Bu qürurverici hadisədən 25 il sonra bir sual maraq doğurur: "Görəsən Vaqif həkimin vaxtilə bərpa etdiyi o qol indi də işləyirmi". Suala cavab almaq üçün professorun özü ilə əlaqə saxladıq: "Bəli, bu hadisə də daxil olmaqla, iki dəfə dirsəkdən qopmuş qolun təkrar yerinə replantasiyası (bərpa olunması) əməliyyatını həyata keçirmişəm. Pasiyentlərin hər ikisi Türkiyə vətəndaşları olub. Biri 6, digəri isə 9 saat çəkən əməliyyatlarla qollarını yerinə replantasiya etmişəm. Sizin də qeyd etdiyiniz kimi, ilk dəfə belə əməliyyatı 1999-cu ildə Türkiyənin İstanbul Universitetində, Çapa tibb fakültəsinin Plastik və Rekonstruktiv Mikrocərrahiyyə Mərkəzində uzmanlıq üzrə təhsil aldığım vaxt aparmışam. Mənə qədər o xəstəni bir neçə yerə aparsalar da, heç kim əməliyyat etməmişdi. Həmin əməliyyata görə dünyada tanınmağa başladım. Belə ağır əməliyyatın digərini isə 2004-cü ildə Azərbaycanda, Travmatologiya İnstitutunda həyata keçirmişdim. Bu pasiyentim Türkiyə səfirliyində işləyən bir türk idi. Rayondan gəldiyi zaman yol qəzasına düşmüşdü və onun da qolu dirsəkdən qopmuşdu. Qolu təkrar yerinə replantasiya etdim. Onu da deyim ki, bu əməliyyatların hər ikisini təmənnasız etmişdim".

Həmin xəstələrin sonrakı durumu haqqında məlumat verən Vaqif həkim bildirib ki, onların hər ikisi yaşayır və tez-tez zəng edərək hal-əhval tuturlar: "Əməliyyatdan 14 il sonra Mustafa Bakıya gəlib məni ziyarət etdi. Xeyli söhbətdən sonra onu yenidən müayinə etdik. Keçən müddət ərzində heç bir problem baş verməmiş və iş qabiliyyəti tamamilə bərpa olunmuşdu. Pasiyentin əl-qol funksiyalarının əvvəlki və sonrakı durumu ilə bağlı bir videoçəkiliş etdik və indi də bu işimizdən məmnunluq hissi duyuruq. Təvazökarlıqdan uzaq olsa da, nəzərinizə çatdırım ki qopmuş qolun replantasiyasını ölkəmizdə ilk dəfə mən həyata keçirsəm də, bu məsələ bir qədər kölgədə qaldı. Lakin dünyanın qəbul etdiyi beynəlxalq rekonstruktiv plastik cərrahiyyə kitabına mənim metodikamın adının ayrıca salınması özü bir tarixdir və fəxrlə demək olar ki, bu, Azərbaycan səhiyyəsinin uğurudur"

Məlumat üçün bildirək ki, Azərbaycan Tibb Universitetinin professoru Vaqif Qələndər Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunun plastik və rekonstruktiv cərrahiyyə ixtisası üzrə rezidentlərinin kuratoru olaraq, bu istiqamətdə bir çox dərslik və dərs vəsaitlərinin müəllifidir.

ABŞ-ın Florida universitetində Rui Fernandesin müəllifi olduğu "Local and Regional Flaps in Head Neck Reconstruction" dərsliyində onun "Daxili döş arteriyası cərrahiyyəsi: yeni flebin təsviri" adlı bərpa üsulu bu sahənin mütəxəssisləri tərəfindən "Vaqif Qələndər metodikası" kimi tədris olunur. Onun 6 yeni cərrahiyyə metodu, 78 elmi əsəri xarici ölkə jurnallarında və konfrans materiallarında nəşr olunub.

Bir çox xarici ölkələrin elmi konfranslarında məruzəçi kimi iştirak edən professor V.Qələndər ölkəmizdə 3 dəfə Beynəlxalq Plastik və Rekonstruktiv Cərrahiyyə konfranslarının təşkilatçısı olub. O, Azərbaycan Plastik Cərrahiyyə İctimai Birliyinin qurucusu və sədri olmaqla, həm də Beynəlxalq Plastik və Rekonstruktiv Cərrahiyyə Konfederasiyasının idarə heyətinin üzvü, Beynəlxalq Plastik və Estetik Cərrahiyyə Assosiasiyasının milli katibidir.

Vaqif Qələndərin elmi yenilikləri və ixtiralarının ABŞ-da yüksək indeksli jurnallarda və dərsliklərdə əks olunması AMEA-nın Tibb bölməsinin ötən il üçün hesabatına daxil edilib.

**M.ƏLƏKBƏRLİ**

# Xəstəxanadaxili infeksiyalar məsələsi müzakirə olunub





**Universitetimizin Tədris Cərrahiyyə Klinikasında "Xəstəxanadaxili infeksiyalar və onların profilaktikası, əksepidemik tədbirlərin hazırlanması" mövzusunda geniş tərkibdə seminar keçirilib.**

Şöbə müdirləri, rezidentlər, baş tibb bacıları və digər tibbi personalın qatıldığı seminarı giriş sözü ilə klinikanın baş həkimi, professor Fariz Camalov açaraq mövzunun aktuallığını diqqətə çatdırıb.

Bundan sonra klinikanın İnfeksion xəstəliklərə nəzarət şöbəsinin müdiri, professor Sədrəddin Atakişizadə mövzuya dair məruzə ilə çıxış edib. O, xəstəxanadaxili infeksiyaların müasir dövrdə bütün dünyada aktual bir problem olduğunu vurğulayıb. Bildirib ki, bu istiqamətdə kifayət qədər işlərin görülməsinə, yeni müayinə və müalicə metodlarının sayının artmasına baxmayaraq, xəstəxanadaxili infeksiyaya görə ölüm halları hələ də yüksək olaraq qalmaqdadır. Bu infeksiyaların törədiciləri haqqında da ətraflı məlumat verən professorun sözlərinə görə, əsas problemlərdən biri onların antibiotiklərə davamlılığının yüksək olmasıdır. Belə ki, xəstəxanadaxili infeksiyaların törədicilərinə qarşı xəstəxanada nəzarətsiz və bakterioloji müayinənin cavabına əsaslanmadan aparılan antibiotik profilaktika resident mikroorqanizmlərin seleksiyasına səbəb olur. Ona görə də həmin törədicilərin əksəriyyəti antibiotiklərə davamlılıq göstərir və nəticədə mütəxəssislər ciddi problemlərlə üzləşir.

Seminarda xəstəxanadaxili infeksiyaların laborator diaqnostikasından, profilaktikası və aradan qaldırılması yollarından, törədicilərin daha çox hansı antibiotiklərə həssaslıq göstərməsindən, damar yolu, sidik yolu kateterlərinə nəzarətin zəruriliyindən söhbət açılıb. Eləcə də tibb işçilərinin və xəstələrin əl gigiyenasına aid vacib məqamlara toxunulub.

Daha sonra klinikanın Mərkəzi Laboratoriyasının Bakteriologiya şöbəsinin müdiri Leyla Həşimova mövzu ətrafında çıxış edərək İnfeksion xəstəliklərə nəzarət şöbəsi ilə laboratoriyanın əməkdaşlığından danışıb. O, klinikada xəstəxanadaxili infeksiyalarla bağlı ciddi bir problemin olmadığını, infeksiyaların qarşısının alınması üçün vaxtında profilaktik və əksepidemik tədbirlərin görüldüyünü deyib.

**ATU-nun Tədris Terapevtik Klinikası ilə Rezidentura və magistratura şöbəsinin birgə təşkil etdiyi növbəti seminar keçirilib. Aparıcı mütəxəssislərin də qatıldığı tədbirdə I Daxili xəstəliklər kafedrasının assistenti Aygün Kazımlı "Pulmonar hipertenziyanın diaqnostikası və müalicəsinə müasir baxış" mövzusunda çıxış edib.**

# Növbəti seminar pulmonar hipertenziyaya həsr edilib

A.Kazımlı bildirib ki, pulmonar hipertenziya (PH) ağciyər arteriyasında təzyiqin artması ilə səciyyələnən proqressiv xəstəlikdir: "Pulmonar hipertenziya həm də özündə müxtəlif kliniki vəziyyətləri birləşdirərək çoxlu sayda respirator və kardiovaskulyar xəstəliklərin gedişatına təsir edir".



Müasir təsnifatla müəyyən edilmiş 5 klinik qrup - xüsusilə, ən çox yayılmış forması olan sol kameraların patologiyası səbəbindən yaranan PH barədə iştirakçıları məlumatlandıran məruzəçi bu xəstəliyin digər klinik qrupları, xüsusiyyətləri və etiologiyadan asılı olaraq müalicə prinsiplərindən bəhs edib. Sözünə davam edən həkim PH-ın diaqnostikasında sağ ürək kateterizasiyasının aparılmasının vacibliyini söyləyib və spesifik müalicənin önəmli məqamlarından danışıb. O, xəstəliyin yaranma səbəbləri, diaqnostikası, müasir müalicə metodları barədə ətraflı söhbət açaraq, xüsusi mərkəzlərdə mütəxəssislər tərəfindən müalicə olunmanı tövsiyə edib.

Məruzəyə dair fikirlərini bölüşən Rezidentura və magistratura şöbəsinin müdir müavini, assistent Namiq Xəlilov dünya əhalisinin 1 faizinin pulmonar hipertenziyadan əziyyət çəkdiyini diqqətə çatdırıb: "Ağciyər arteriyasında təzyiqin artması ilə səciyyələnən bu proqressiv xəstəlik ürək çatışmazlığına səbəb olur. Bu isə müalicə olunmadığı halda ölümlə nəticələnir. Ölkəmizdə PH xəstələrinin qeydiyyatı və ixtisaslaşmış müalicə mərkəzi olmadığı üçün PH-a rastgəlmə tezliyi ilə bağlı doğru statistik məlumatlar vermək qeyri-mümkündür". O, əlavə edib ki, həkim və rezidentlərin diqqətini bu probleme yönəltmək prioritet məsələdir və PH-ın zamanında aşkarlanması xəstələrin həyat keyfiyyətinə müsbət təsir göstərə bilər.

Seminarda çıxış edən Tədris Terapevtik Klinikanın baş həkim Fəridə Hacıyeva bu xəstəliyin erkən aşkarlanmasının vacibliyini vurğulayaraq, son illər onun müalicəsində ciddi uğurlar əldə edildiyini və bu müalicəyə ölkəmizdə əlçatanlığın təmini üçün müxtəlif sahələrdə çalışan həkimlərin diqqətini bu istiqamətə yönəltməyin zəruri olduğunu bildirib.

Daha sonra I Daxili xəstəliklər kafedrasının dosenti Xumar Qurbanova pulmonar arterial hipertenziyalı xəstələrin real klinik praktikada zamanında və düzgün aşkarlanmasının çətinlikləri ilə bağlı mövcud məqamlara toxunub.

Seminarın sonunda mövzu ətrafında müzakirələr aparılıb və iştirakçıları maraqlandıran suallara aydınlıq gətirilib.

**İnsanın sağlamlığı qəbul etdiyi qidadan, həmin qidanın tərkibindəki komponentlərin miqdarı və bir-birinə nisbətindən çox asılıdır. Son zamanlar qida əlavələri və onların istifadəsinin məqsədləri insanları maraqlandıran məsələlərdən biridir. Qida əlavələri istehsal, qablaşdırma, daşınma və saxlanma zamanı yeyinti məhsullarına qatılan təbii və sintetik maddələrdir. Müxtəlif yeyinti məhsullarının orqanoleptik xüsusiyyətlərini yaxşılaşdırmaq, məhsulun davamlılığını artırmaq, xarab olmasının qarşısını almaq, saxlama müddətini uzatmaq, texnoloji prosesi, yaxud onun ayrı-ayrı mərhələlərini yaxşılaşdırmaq və s. üçündür.**

# Hansı qidalara kimyəvi konservantların qatılmasına icazə verilmir?

## Və ya yeyinti məhsulları istehsalında qida əlavələrinin əhəmiyyəti və onlarla bağlı tələblər



Yeyinti məhsullarının orqanoleptik xüsusiyyətlərini yaxşılaşdırmaq üçün təbiq olunan qida əlavələrinə konsistensiyanı yaxşılaşdıranları, rəngləyiciləri, dadverici maddələri, ətirləndiriciləri misal göstərə bilərik. Konsistensiyanı yaxşılaşdıran qida əlavələrindən - aqaroid, natrium alginat, natrium fosfat və s. əsasən qeyri-sabit konsistensiyalı, homogen tərkibli yeyinti məhsulları (dondurma, marmelad, ərinmiş pendirlər, kolbasalar və s.) istehsalında istifadə edilir. Rəngləyici qida əlavələri marqarin, pendir, kərə yağı, qənnadı məmulatları və içki (spirtsiz içkilər və likör) istehsalı sənayesində istifadə olunur. Məsələn, sarı rəng verən kök, zəfəran və s. qeyd etmək olar. Yeyinti məhsullarında xoş iy-qoxu əmələ gətirən ətirləndirici və aromatik hesab olunan təbii cövhərlərdən mixək, darçın, hil, zəncəfil; şirələrdən moruq, albalı şirəsini, efir yağlarından portağal, limon, qızılgül, nanəni və s. göstərmək olar. Yağların oksidləşməsinə mane olan və onların xarab olmasının qarşısını alan təbii antioksidantlardan başqa, 3 aydan çox saxlamaq lazım gəldikdə butiloksianizol, butiloksitoluol kimi sintetik qida əlavələrindən istifadə edilir.

Qida əlavələri qeyd olunan məqsədlərdən başqa, yeyinti məhsullarının bakteriyaların, kif göbələklərinin təsirindən xarab olmasının qarşısını almaq üçün də istifadə olunur. Belə ki, kimyəvi qida konservantlarından benzoy turşusu və benzoy turşusunun natrium duzu - balıq kürüsü, balıq prozervləri, povidlanın, urotropin - qızıl balıq kürüsünün, sulfit turşusu və sulfid anhidridi - marmelad, zefir, cem, bişmiş kartofun, sorbin turşusu və sorbin turşusunun natrium duzu - spirtsiz sərinləşdirici içkilər, meyvə-giləmeyvə şirələri, qatılaşdırılmış süd, ərinmiş pendir, dənəvər kürü, marqarin, mayonez və s. bu kimi məhsulların istifadə müddətinə qədər xarab olmasının qarşısını alır.

Lakin nəzərə almaq lazımdır ki, kütləvi istifadə olunan süd, un, çörək, təzə ət, xüsusi pəhriz məhsullarına, uşaqlar üçün nəzərdə tutulan və eləcə də təzə, təbii adlanan məhsullara kimyəvi konservantların qatılmasına icazə verilmir.

Xüsusi olaraq qeyd etmək lazımdır ki, xammalın və hazır yeyinti məhsulunun keyfiyyətsizliyini, köhnəliyini, istifadə müddəti bitmiş məhsulların isə təkrar istifadəyə verilməsi məqsədilə yararsızlığını gizlətmək üçün qida əlavələrindən istifadə olunması qadağandır.

Təbii qida əlavələrinin insan orqanizmi üçün zərərli təsiri yoxdur. Lakin sintetik qida əlavələrinin bəzilərində toksiki, mutagen, kanserogen və s. zərərli təsirlər aşkar edilə bilir. Bununla əlaqədar olaraq, qida əlavələrinin istifadəsinin nizamlanmasında yeyinti məhsullarına yeni qida əlavələrinin daxil edilməsi Sanitar-epidemioloji salamatlıq haqqında qanunun (10 noyabr 1992-ci il) 20-ci maddəsinə əsasən yalnız toksikoloji-gigiyena rəyi verildikdən sonra Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin icazəsi ilə müəyyənləşdirilmiş qaydada mümkündür. Azərbaycan Respublikasında qida əlavələrinin nizamlanması və tətbiqi Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin razılığı ilə "Qida əlavələrinin tətbiqinə dair sanitariya qaydaları" əsasında həyata keçirilir.

Bu qaydaların pozulması nəticəsində qida əlavələri insan orqanizmi üçün təhlükəli ola bilər. Belə ki, dəri üçün zərərli, xərçəng yaranması, arterial təzyiqin pozulması, bağırsaq pozğunluqları, allergik səpkilərin əmələ gəlməsi və s. xoşagəlməz hallar ortaya çıxa bilər. Təbii ki, orqanizmin həssaslığı, immun sisteminin zəifliyi, digər yanaşı xəstəliklərlə əlaqəli və infeksiyalar zamanı belə halların baş verməsi mümkündür.

Onu da qeyd etmək lazımdır ki, xüsusən uşaqların qidalanmasında istifadə olunan məhsulların tərkibinə qatılan əlavələr istehsalçılar tərəfindən daha böyük məsuliyyətlə müəyyənləşdirilməlidir.

Xoşagəlməz mənfi təsirlərin baş verməsinin qarşısını almaq üçün yeyinti məhsulları ilə orqanizmə daxil olan bütün qida əlavələrinin normallaşdırılması mütləqdir. Qida əlavələrinin istifadəsinə bir sıra tələblər irəli sürülür: qida əlavələrinin ən az miqdarı lazımi texnoloji nəticəni verməlidir, tamam zərərsiz olmalı, məhsulun orqanoleptikasını, qidalandırıcı və bioloji dəyərini pisləşdirməməlidir.

Qida qanunvericiliyinə uyğun olaraq istifadə edilən bütün komponentlər Beynəlxalq Rəqəmsal Sistem siyahısında öz nömrəsi ilə qeyd olunur. Dünyada qida istehsalı zamanı istifadə edilən bütün qida əlavələrinin kodları Codex Alimentarus Komissiyasının səhifəsində yerləşdirilib. Bu cür sistematikanın aparılması həm istehsalçıların, həm də istehlakçıların düzgün informasiya almasına kömək edir. Qida əlavəsinə laboratoriyada insan sağlamlığına ziyanlı olub-olmaması tədqiq edildikdən, tam təhlükəsiz olduğu müəyyənləşdirildikdən sonra kod verilir. Hər bir qida əlavəsinin hansı miqdarda və ya həcmdə istifadəsi də bu tədqiqatlar zamanı müəyyən edilərək standart kimi tətbiq olunur.

Avropa Birliyi ölkələrinin regional sistemində qida əlavələrinin qeydiyyatı zamanı əvvəlinə "E" hərfi yazılmış 3 və 4 rəqəmdən ibarət kodlardan istifadə edilir. Buna görə də yeyinti məhsullarının əksəriyyətinin qablaşması üzərində hərf və rəqəmlərdən ibarət indekslər olur.

Yeyinti məhsulları istehsal edən sahibkarlar müəssisələrdə qida əlavələrinin tətbiqinə Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin razılığı ilə başlamalıdır.

**Fəridə ƏLİ**
*Qidalanma və tibbi ekologiya kafedrasının müdiri, dosent*
**Qəribə HACIYEVA**
*kafedranın dosenti*

# Əczaçılıq toksikologiyası və kimya kafedrasının elmi-tədqiqat nailiyyətləri



**Azərbaycan Tibb Universitetinin bəzi klinik kafedralarında müalicə işləri aparılsa da, əksər kafedraların əsas istiqaməti tədris və elmi sahədir. Tədrislə yanaşı elmi-tədqiqat işlərinə böyük önəm verən kafedralardan biri də Əczaçılıq toksikologiyası və kimya kafedrasıdır.**

Burada Əczaçılıq, Stomatologiya, İctimai səhiyyə, Hərbi tibb fakültələrinin bakalavr və magistr pilləsində təhsil alan tələbələri üçün əczaçılıq toksikologiyası və müxtəlif kimya, eləcə də ixtisas fənləri tədris olunur. Eyni zamanda kafedranın əməkdaşları Azərbaycan florasında geniş yayılmış bitki xammallarından bioloji fəal maddələrin fərdi alınması, onların yarımsintetik törəmələrinin əldə edilməsi, müasir analitik üsulların köməyilə identifikasiyası, maddələrin in vitro və in vivo tədqiq edilməsi, bəzi ağır metal ionlarının müxtəlif bioloji materialdan təcrid edilməsi, antibakterial xassəyə malik polimer maddələrin alınması və tətbiq edilməsini həyata keçirirlər. Alınan maddələrin və onların yarımsintetik törəmələrinin bioloji fəallıqlarının və toksikliklərinin müasir kompüter proqramlaşdırma üsulları – in silico tədqiqini aparır, onların dərmanabənzərlik xüsusiyyətlərini öyrənirlər.

Bu barədə qəzetimizə məlumat verən kafedranın müdiri, professor Eldar Qarayev bildirib ki, son on ildə professor-müəllim heyəti tərəfindən 25-dən artıq sayda (E.Qarayev – 10, Q.İskəndərov – 7) yerli və Avrasiya patentləri (ixtira), o cümlədən 2023-cü ildə "Çay tullantılarından tərkibi L-teonin və kofeindən ibarət zehni fəaliyyəti yaxşılaşdıran substansiyanın alınması üsulu" (E.Qarayev, T.Nəsibova, E.Qarayev) və "Flavonoid aqlikonlarının sulu mühitdən ayrılması üsulu" (E.Qarayev, İ.Mövsümov, İ.Nəsirli) adlı 2 Avrasiya Patenti alınıb.

Onun sözlərinə görə, kafedra əməkdaşlarının apardıqları elmi-tədqiqat işlərinin nəticələri müntəzəm olaraq yüksək nüfuzlu və impakt faktorlu jurnallarda çap olunur: "Belə ki, 2023-cü ildə əməkdaşların 32 elmi-tədqiqat işi elmi jurnallarda, onlardan biri isə Q1 bazasında impakt faktoru yüksək (İF 7,68) olan "Antioxidants" jurnalında (E.Qarayev və başqaları) dərc edilmişdir. Belə elmi fəaliyyətin nəticəsidir ki, əməkdaşların elmi məhsuldarlıq göstəriciləri olan Google Scholar elmimetrik bazası üzrə h-indeksləri (E.Qarayev – 10, A.Sadıqova – 3, F.Quliyev – 2) yüksəkdir.

Bundan əlavə, əməkdaşlar yerli və beynəlxalq konfrans və simpoziumlarda xüsusi fəallıq göstərirlər. Son illər kafedra əməkdaşları Fransa, Türkiyə, Yunanıstan, Özbəkistan, Pakistan və İspaniyada keçirilən beynəlxalq tədbirlərdə məruzə və poster-çıxışlarla iştirak ediblər. Ötən 10 il ərzində kafedra əməkdaşları müxtəlif beynəlxalq konfransların təşkilat və elmi komitələrinin üzvü, sədri və bir neçə beynəlxalq jurnalın redaksiya heyətinin üzvü, beynəlxalq cəmiyyətlərə (SOT - Society of Toxicology və s.) tam hüquqlu üzv olaraq seçiliblər".

Professor E.Qarayev onu da vurğulayıb ki, aparılan elmi-tədqiqat işlərinin keyfiyyətinin artırılması məqsədi ilə kafedrada yerli ali təhsil müəssisələri, elmi-tədqiqat institutları ilə, həmçinin beynəlxalq əməkdaşlığa ciddi əhəmiyyət verilir. Belə yerli müəssisələrdən Bakı Dövlət Universitetinin Üzvi kimya kafedrası, Aşqarlar Kimyası İnstitutu, Polimer Materiallar İnstitutu, Qida Təhlükəsizliyi İnstitutu, xarici müəssisələrdən isə Fransanın Eks-Marsel Universiteti, Türkiyənin Ankara Universiteti, Rusiyanın Moskva Dövlət Universiteti, Ukraynanın Milli Əczaçılıq Universiteti və s. göstərilə bilər. Kafedra əməkdaşlarından K.Bədəlova Erasmus proqramı üzrə İspaniyada (6 ay), İ.Nəsirli Fransada (2 dəfə, hər dəfə 3 ay), kafedranın doktorantları T.Nəsibova Türkiyədə (2 ay), Fransada (3 ay), Macarıstanda (5 ay), Almaniyada (2 ay), A.Vəliyeva Macarıstanda (5 ay) və Türkiyədə (2 ay) elmi-tədqiqatlar üzrə ezamiyyətdə olublar.

Kafedranın əməkdaşları hazırda ATU ilə Türkiyənin Ankara Universiteti arasında mövcud olan memoranduma müvafiq olaraq həmin universitetin Ədliyyə toksikologiyası kafedrası və ARKOD dərnəyinin əməkdaşları ilə birgə Azərbaycanın tullantı sularında psixoaktiv maddələrin analizi layihəsinin elmi-tədqiqat işləri üzərində çalışırlar.

**Süd vəzi xərçənginin erkən aşkarlanmasının əhəmiyyəti haqqında fikirlərini bölüşən ATU-nun Şüa diaqnostikası və şüa terapiyası kafedrasının assistenti Günel Əliyeva əvvəlcə bu istiqamətdə qazandığı elmi və praktik təcrübədən söhbət açıb. Uzun illər Moskva şəhərində yerləşən N.N.Bloxin adına Rusiya Onkoloji Elmi Mərkəzində çalışdığını bildirərək qeyd edib ki, bura Avropanın ən böyük elmi mərkəzlərindən biri hesab olunur. Çünki xəstələr mərkəzdə təkcə onkoloji müalicə, kimya terapiyası almır, həmçinin burada böyük bir radioloji institut fəaliyyət göstərir.**

# Erkən aparılan düzgün müayinə ölüm faizini azaldır

## Günel Əliyeva: 20-40 yaş arası qadınları mammoqrafik müayinə etmək olmaz



Bu radioloji institutda ordinaturanı bitirən və süd vəzi diaqnostikası şöbəsində çalışan G.Əliyeva, Qalina Korjenkova kimi məşhur bir mütəxəssisin, professorun rəhbərliyi altında çalışmağı özünün ən böyük uğuru hesab edir: “Bu mütəxəssisin rəhbərliyi altında süd vəzinin erkən xərçəngi növlərinin kompleks müayinəsinə həsr olunmuş elmi işimi müdafiə etdim və vətənə qayıtdım. Hal-hazırda ATU-nun Şüa diaqnostikası və şüa terapiyası kafedrasının assistentiyəm. Eyni zamanda Bakı Sağlamlıq Mərkəzində radiologiya şöbəsində şüa diaqnostikası üzrə həkim kimi çalışıram. Məqsədimiz xalqımıza xidmət etmək, qadınlarımızı maarifləndirmək, vaxtında apardığımız düzgün müayinələr nəticəsində süd vəzində olan bu və ya digər xəstəliklərin erkən aşkarlanmasına nail olmaqdır. Çünki erkən aparılan düzgün müayinə tədbirləri, əlbəttə ki, ölüm faizini azaldır. Yəni məqsəd 1 sm-ə qədər olan erkən xərçəngləri aşkar etməkdir. Bu halda proqnoz ölüm göstəricisinin 98-99 faiz azaldığını göstərir. Xərçəngin erkən aşkar edilməsinin əsas üstünlüyü odur ki, həm asan və yüngül müalicələrlə kifayətlənir, həm də kiçik əməliyyatlarla əlilliyə gətirib çıxarmayan müsbət nəticədə əldə edirik”.

Qadın bədəninin 18 yaşdan sonra tam formalaşdığını, hormonal statusunun stabilləşdiyini, ona görə də qızların 18, 20 yaşdan etibarən müayinəyə cəlb olunduğunu deyən həkim onu da bildirib ki, 20-40 yaş arası qadınları mammoqrafik müayinə etmək olmaz: “Çünki mammoqrafiyanın yüksək effektivliyinə baxmayaraq, cavan qadınlarda, hansı ki, süd vəzləri bu və ya digər səbəbdən yüksək sıxlığı ilə seçilir, onun nəticələri düzgün olmaya bilər. Biz mammoqrafik müayinə zamanı həmin yüksək toxuma fonunda dəyişikliyi görə bilmirik. Ona görə də 20 yaşdan yuxarı qızlarımız ancaq ultrasəs müayinəsindən keçməlidir. Ultrasəs müayinəsinin fiziki əsasları ionlaşdırıcı şüalar deyil, exo, yəni səs siqnalları olduğu üçün bədənə heç bir ziyanlı təsiri yoxdur. Bunu nəzərə alaraq biz qadınlarda erkən aparılan müayinəni USM müayinəsi ilə başlayırıq. Lakin burada bir müstəsna var, genlərdə olan müxtəlif mutasiyalar, xəstələrdə irsi faktorlara meyllilik, yəni ana, xala və digər qohumlarda təkrarlanmış süd vəzi xərçəngi və yaxud yumurtalıq xərçəngi varsa, biz bu qadınları mütləq gen analizinə göndəririk. Gen analizində mutasiya aşkarlanarsa, USM-dən əlavə MRT müayinəsinə də zərurət yaranır. Dünyada artıq bu praktika çoxdan və geniş tətbiq olunur. Bu qadınlarda USM və MRT mütəmadi aparılır, 35 yaşdan etibarən isə gen mutasiyası daşıyan xanımlara artıq mammoqrafik müayinə əlavə olunur. Toxuma sıxlığından və yaxud hansısa bir patologiyanın yayılması səbəbindən dəqiqləşdirici müayinə lazım olduqda, kontrastlı MRT-yə müraciət edirik. Əldə etdiyimiz bütün radioloji məlumatdan sonra isə son sitoloji nəticəni patoloq-anotom deyir. Bunlar artıq invaziv müayinələrdir. İnvaziv metodlar vasitəsilə gördüyümüz törəmələrdən əldə etdiyimiz materialları sitoloji müayinəyə göndərərək son nəticəni histoloqdan gözləyirik. Alınan nəticəyə uyğun olaraq müalicə və cərrahi əməliyyat taktikaları seçilir”.

Mammoqrafik müayinə zamanı müasir rəqəmsal aparatların rolundan da danışan G.Əliyevanın sözlərinə görə, müasir rəqəmsal sistemlərin klinik təcrübədə tətbiqi adi rentgenoqrafiyanın mənfi xüsusiyyətini kompensasiya etməyə imkan verir: “Belə ki, həm şəklin keyfiyyəti yaxşılaşır, həm də eyni zamanda bir neçə proyeksiyada alına bilər, kontrastlıq və parlaqlığı dəyişmək mümkündür, müəyyən hissəni böyüdərək baxmaq olur və s. Həmçinin plyonkadan fərqli olaraq bu sistemdə məlumatlar daha etibarlı qorunur. Unutmamalıyıq ki, hər bir radioloq üçün müqayisəli təhlil çox vacibdir. Əgər xəstə müəyyən müddətdən sonra gəlirsə, həkim 1 il, 6 ay əvvəlki nəticələri tutuşduraraq yeni bir törəmənin yaranıb-yaranmamasını dəqiqləşdirir. Yəni müxtəlif metodları müxtəlif şəkildə kombinə etdikdə, məlumat çox olur və düzgün diaqnoz qoymaq asanlaşır.

# Yaşlı insanların problemlərinə həsr olunmuş monoqrafiya işıq üzü görüb

**Artıq arxada qoyduğumuz 2023-cü ildə dərc edilən kitabların sırasına daha biri əlavə olunub. Belə ki, dosentlər Şəfəq İbrahimova, Aytən Sultanova, professor Sergey Alimetov, tibb üzrə fəlsəfə doktorları Məsməxanım Məcidova, Aynur Hümbətova və uzman psixiatr Alim Alimetovun birgə müəllifliyi ilə “Geriatriya” monoqrafiyası işıq üzü görüb. Ana dilimizdə həmin mövzuya dair ilk elmi-praktik, monoqrafik kitabda ahıl və qoca şəxslərdə ən çox rast gələnən xəstəliklər və sindromların klinikası, diaqnostikası, müalicə reabilitasiyası və profilaktikası öz əksini tapıb.**




Məlumat üçün bildirək ki, XX əsrin ortalarından başlayaraq dünyanın inkişaf etmiş ölkələrində əhalinin yaş quruluşu göstəriciləri arasında ahıl və qoca insanların artması prosesi gedir. Birləşmiş Millətlər Təşkilatının dünya əhalisinin 1950-2050-ci illər arasında quruluş dəyişikliklərinə həsr olunmuş analitik məruzəsinə əsasən, XXI əsrdə əhalinin qocalması prosesi davam edəcək və dünyanın bütün ölkələrində, o cümlədən Azərbaycanda da qlobal fenomen olacaq. BMT-nin bu barədə hesabatına görə, yaşı 60 və ondan çox olan insanların sayı 2015-ci ildə əhalinin 20%-ni təşkil etmiş, 2025-ci ildə 24%, 2050-ci ildə isə 30-33% olacaq.

Azərbaycanda ahıl yaşlı insanların sayı inkişaf etmiş ölkələrin həmin göstəricilərinə nisbətən və orta dərəcədə inkişaf etmiş ölkələrə müqayisədə yüksəkdir.

Əhali arasında yüksək yaşlı qrup nümayəndələrinin sayca artması tibbi, sosial və psixoloji problemlərin çoxalmasına gətirib çıxarır. Ahıl və qoca insanlarda rast gəlinən əsas problemlər ilk növbədə yaşla əlaqədar inkişaf edən xəstəliklərlə bağlıdır. Bunlara ürək-qan damar sistemi, hərəki-dayaq orqanları xəstəlikləri, Alzheymer xəstəliyi, şəkərli diabet və onkoloji xəstəliklər birbaşa aiddir. Adları çəkilən patologiyalar pasiyentlərin həyat keyfiyyətini ciddi şəkildə pisləşdirir. Ona görə də praktik olaraq xəstəliklərin inkişafı ilə sinxron şəkildə əlilliyin və ölümün artması qeyd edilir.

Bu problemlərin adekvat və vaxtında həlli üçün səhiyyə sistemi müvafiq şəkildə və dərəcədə hazırlıqlı olmalıdır. Odur ki, geriatriya sahəsində işin təşkili və icrası üçün həm də müasir geriontoloji məlumatları özündə cəm edən diqqətəlayiq ədəbiyyatın ana dilində varlığına ehtiyac duyulurdu. Məhz bu məqsədlə yazılan monoqrafiya tələbələr, gənc həkimlər, rezident və magistrlər, terapevtlər, geriatrlar və ahıllara tibbi xidmət göstərən digər həkimlər üçün nəzərdə tutulub.

# “Sözün şəfqəti”

**Bildiyiniz kimi, qəzetimizin səhifələrində daha çox yeni elmi kitablar, təbabətin müxtəlif sahələrinə dair monoqrafiyalar, dərsliklər, dərs vəsaitlərinin nəşri barədə məlumat veririk. Amma onun da fərqindəyik ki, tibb alimləri, həkimlər, şəfqət bacıları təkcə fiziki sağlamlığımızın deyil, həm də mənəvi sağlamlığımızın keşikçiləridir.**

Onların arasında bədii yaradıcılıqla məşğul olanlar kifayət qədərdir və hər biri sözün şəfqəti ilə də insanlara şəfa bəxş etməyə çalışır. Elə özü də tibb sahəsində çalışan şairə Sara Göyçəlinin toplayıb ərsəyə gətirdiyi, “Təbib” qəzetinin əməkdaşı, tədqiqatçı-jurnalist Qabil Zimistanoğlunun redaktorluğu ilə işıq üzü görən almanax da “Sözün şəfqəti” adlanır.

Kitabda vaxtilə və hazırda Azərbaycan Tibb Universitetində çalışan əməkdaşların, həmçinin dünyasını dəyişən yaradıcı şəxslərin şeirləri, xatirələri, məqalələri, esseləri toplanıb. Almanaxa daxil edilən rəngarəng poeziya nümunələri oxucuda fərqli ovqat yaradır. Biz də o fikirdəyik ki, həkimlər şair təbiətli olanda sözün qüdrətindən istifadə edərək pasiyentlərdə xoş əhval-ruhiyyə yarada bilirlər.

Unutmayaq ki, daim gərgin işlə məşğul olan peşə sahiblərinin hərdən öz ruhlarına bədii sözün gücü ilə sığal çəkməyə ehtiyacı var. Məhz bu baxımdan “Sözün şəfqəti” almanaxının tibb sahəsində fəaliyyət göstərən hər kəs üçün faydalı bir kitab olacağına inanırıq. Eyni zamanda əminik ki, həkim oxucular öz həmkarlarını başqa bir yöndən də tanıyaraq, onları şəfqətli söz adamı kimi də sevəcəklər.




### Allah rəhmət eləsin!

İnsan anatomiyası və tibbi terminologiya kafedrasının əməkdaşları kafedranın professoru Mübariz Allahverdiyevə qudasının, kafedranın baş müəllimi Təranə xanıma isə qaynatası

**Cabir Kərimovun**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

III Cərrahi xəstəliklər kafedrasının kollektivi kafedranın əməkdaşı

**Vüqar Fərəclinin**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Farmakologiya kafedrasının əməkdaşları kafedranın preparatoru Aynurə Tağıyevaya atası

**Qurbanın**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

İctimai fənlər kafedrasının əməkdaşları laborant Sona Heydərovaya qaynanası

**Sədaqət xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Baş redaktor
MƏĞRUR ƏLİYEV

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
Əlyazmalar geri qaytarılmır

“Təbib” qəzetinin kompüter mərkəzində yığılır, səhifələnir, ATU-nun “Təbib” nəşriyyatında çap olunur və universitet daxilində yayılır

ÜNVANIMIZ:
Mərdanov qardaşları - 98c
2-ci mərtəbə,
Tel.: 595-24-97
tabibqazeti@gmail.com

Lisenziya H - 022633
İndeks -0269
Sifariş - 0004
Sayı 800